**04-06** NOYABR 2026 | BAKI EKSPO MƏRKƏZİ

# AVADANLIQLARLA TƏCHİZ EDİLMƏMİŞ SAHƏLƏR ÜÇÜN TEXNİKİ TƏLİMAT

AIREX

AZƏRBAYCAN BEYNƏLXALQ DAŞINMAZ ƏMLAK SƏRGİSİ

airex.az

# SƏRGİYƏ XOŞ GƏLMİSİNİZ!

Hörmətli iştirakçılar!

Sizə sərginin mühüm təşkilati və texniki məlumatlarını əhatə edən Texniki Təlimatını təqdim etmək istəyirik. **Vacib məlumatlar** faylında göstərilən müddətlər başa çatmadan aşağıdakı formaların doldurulması tələb olunur.

Nəzərinizə çatdırırıq ki, quraşdırma (montaj) mərhələsində verilən sifarişlərə ilkin qiymətə 100% əlavə ödəniş tətbiq edilir. Montaj dövründə və sərgi günlərində qəbul edilən sifarişlər yalnız texniki icrasının mümkünlüyü təsdiqləndikdən və sifariş məbləğinin tam həcmində (100%) AZN ilə yerindəcə ödənilməsindən sonra icra ediləcək.

---

**Tələb olunan formalar:**

**1. Stend quraşdırıcı şirkətin seçilməsi və iştirakçı dəstəyinin qeydiyyatı** *(mütləq şəkildə. Texniki Menecerə e-poçt vasitəsilə məlumat verilməlidir.)*

**2. Stend quraşdırıcı şirkətin qeydiyyatı** *(qeydiyyatdan keçməyibsə Texniki Menecerə e-poçt vasitəsilə məlumat verilməlidir.)*

**3. Stendin 3D dizaynı** *(məcburi. Texniki Menecerə e-poçt vasitəsilə məlumat verilməlidir)*

**4. İri və ağır çəkili eksponatların gətirilməsi və aparılması üçün müraciət** *(mövcud olduqda)*

**5. Kiçik qabaritli avadanlıq və eksponatların idxalı və ixracı üçün forma** *(mövcud olduqda)*

**6. Elektrik təchizatı, əlavə texniki avadanlıq və xidmətlərin sifarişi** *(tələb olunduqda)*

Sizi sərgidə görməyi səbirsizliklə gözləyir, uğurlar arzulayırıq!

**Hörmətlə,**

Baku Expo Management şirkətlərinin Texniki şöbəsi

+994 50 226 60 69 ogtay.mammadov@airex.az

# TEXNİKİ TƏLİMATIN MƏZMUNU


| Mövzu | Səhifə |
|---|---|
| ***Sərginin keçiriləcəyi yer — Bakı Ekspo Mərkəzi*................................** | 3–5 |
| Pavilyonlarda tavan hündürlüyü....................................................... | 3 |
| Pavilyonlarda döşəmənin yük daşıma qabiliyyəti.............................. | 4 |
| Bakı Ekspo Mərkəzindəki yük qapılarının ölçüləri.............................. | 4 |
| Malların gətirilməsi və aparılması qaydaları.......................................... | 5 |
| Təhlükəsizlik tədbirləri........................................................................ | 6–9 |
| Stend quraşdırıcı şirkətlərin akkreditasiyası......................................... | 6 |
| ***Stend haqqında ümumi məlumat*.......................................................** | 5 |
| Stend quraşdırıcıları kabineti və montaj qrupunun qeydiyyatı................ | 6 |
| Akkreditasiyadan keçməmiş şirkətlərin siyahısı................................... | 7 |
| Montaj qrupu və iştirakçı dəstəyinin iş sahəsinə buraxılması.................. | 7 |
| Stendin müstəqil şəkildə quraşdırılması............................................... | 7 |
| Montaj işlərinin aparılma qaydaları......................................................... | 7–8 |
| İkimərtəbəli stend konstruksiyaları........................................................... | 8 |
| Stend daxilində yemək hazırlanması.......................................................... | 8 |
| Şüşə divarlar və güzgülər........................................................................ | 8 |
| Yol verilən səs-küy həddləri........................................................................ | 8–9 |
| ***Ümumi məlumatlar.........................................................................*** | 9 |
| Stendlərdə əlçatanlıq üçün paнdus quraşdırılmasına dair tövsiyələr............ | 10–11 |
| Qapılar........................................................................................................ | 10 |
| Stendin icazə verilən hündürlüyü............................................................... | 10 |

| **Mövzu** | **Səhifə** |
|---|---|
| Asma konstruksiyalar | 10 |
| QR-kod, stend nömrəsi və sərgi loqosu | 10–11 |
| Ümumi və əlavə xidmətlər | 11 |
| Standart və fərdi sahənin quraşdırılması | 11 |
| Təmizlik xidməti | 11 |
| Montaj zamanı əlavə iş saatları | 13 |
| Müvəqqəti işçi heyətinin cəlb edilməsi | — |
| Təhlükəsizlik xidməti | — |
| Elektrik enerji təchizatı | — |
| Su xəttinə qoşulma | — |
| Telekommunikasiya xidmətləri | — |
| Bannerlər və pavilyon tavanına texniki asmalar | — |
| Ödəniş şərtləri və sifarişin ləğvi | — |
| ***Cərimə tədbirləri*** | — |
| ***Elektrik quraşdırma işləri və icraçıların fəaliyyəti*** | — |

## SƏRGİNİN KEÇİRİLƏCƏYİ YER | BAKI EKSPO MƏRKƏZİ

**Pavilyonlarda tavan hündürlüyü** 1, 2, 3, 4 nömrəli pavilyonlar .................. **8 m**

**DİQQƏT:** Stend hündürlüyü **5 m**-i aşmamalı və **2,5 m**-dən aşağı olmamalıdır.

**Pavilyonlarda döşəmənin yük daşıma qabiliyyəti** 1, 2, 3, 4 nömrəli pavilyonlar .................. **2000 kq/m²** Hər bir sərgi eksponatının çəkisi **3500 kq**-dan çox olmamalıdır.

**DİQQƏT:** Bakı Ekspo Mərkəzinin foyesindəki eksponatlar üçün yük normaları ayrıca və fərdi qaydada müəyyən edilir.



## BAKI EKSPO MƏRKƏZİNDƏ YÜK QAPILARININ ÖLÇÜLƏRİ

**Pavilyon 1**

- 1-ci və 2-ci sağ yük keçidləri: **4,1 m x 4,4 m** (E x H)
- Sol yük keçidi: **4,1 m x 4,4 m** (E x H)
- 1-ci arxa yük keçidi: **4,1 m x 4,4 m** (E x H)
- 2-ci arxa yük keçidi: **4,7 m x 7,4 m** (E x H)

**Pavilyon 2**

- 1-ci və 2-ci sağ yük keçidləri: **4,1 m x 4,4 m** (E x H)
- Sol yük keçidi: **4,1 m x 4,4 m** (E x H)
- 1-ci arxa yük keçidi: **4,1 m x 4,4 m** (E x H)
- 2-ci arxa yük keçidi: **4,7 m x 7,4 m** (E x H)

**Pavilyon 3**

- Sağ yük keçidi: **4,1 m x 4,4 m** (E x H)
- 1-ci arxa yük keçidi: **4,1 m x 4,4 m** (E x H)
- 2-ci arxa yük keçidi: **4,7 m x 7,4 m** (E x H)

**Pavilyon 4**

- 1-ci, 2-ci, 3-cü və 4-cü sol yük keçidləri: **4,1 m x 4,4 m** (E x H)
- Sağ yük keçidi: **4,1 m x 4,4 m** (E x H)
- 1-ci və 2-ci arxa yük keçidləri: **4,1 m x 4,4 m** (E x H)

**Yük dəhlizi**

- Giriş yük keçidi: **4,1 m x 3,7 m** (E x H)
- Foyedəki yük keçidi: **2,5 m x 3,9 m** (E x H)

## MALLARIN İDXALI VƏ İXRACATI

Gömrükdən keçmiş və ya Azərbaycanda istehsal olunmuş kiçik qabaritli avadanlıq və eksponatların sərgi ərazisinə gətirilməsi və aparılması üçün müvafiq idxal-ixrac formasından istifadə edilməlidir *(1-ci səhifəyə baxın)*.

Nümayiş olunacaq məhsul və eksponatlar quraşdırmanın son günü saat **09:00–20:00** arasında gətirilməlidir. Bütün qutu və yeşiklər həmin günün axşamı **saat 20:00-a qədər** açılmalı və stend ərazisindən çıxarılmalıdır. Əks halda təşkilatçılar onları iştirakçının öz xərcləri hesabına stənddən götürmək hüququnu özlərində saxlayırlar.

**DİQQƏT:** Sərgi başa çatmadan eksponatların qablaşdırılıb göndərilməsinə icazə verilmir. Yükboşaltma tamamlandıqdan sonra nəqliyyat vasitəsi dərhal Bakı Ekspo Mərkəzinin ərazisini tərk etməlidir.

Yük maşınları qeydiyyata alınarkən hər oxuna düşən yük miqdarı texniki pasportda qeyd edilməlidir. Hər ox üzrə **5 tonu** aşan nəqliyyat vasitələrinin əraziyə girişinə icazə verilmir.

**DİQQƏT:** Ağır texnika və ya iri qabaritli eksponat nümayiş etdirəcək şirkətlər quraşdırmanın **ilk günü** sərgi salonuna gəlməlidir. Stendlər qurulduqdan sonra zala daxil olmaq mümkün olmayacaq. Bu kateqoriyaya aid avadanlıqların gətirilməsi və aparılması üçün müvafiq forma doldurulmalıdır *(1-ci səhifəyə baxın)*.

**QEYD:** Erkən giriş tələb olunduqda, ağır texnikanın quraşdırma işlərinin rəsmi başlanmasından əvvəl əraziyə daxil olmasına Təşkilatçı tərəfindən icazə verilə bilər.

## TƏHLÜKƏSİZLİK

Bütün stendlər quraşdırmanın son günü **saat 20:00-a qədər** təhlükəsizlik yoxlaması üçün hazır vəziyyətə gətirilməlidir. Bu səbəbdən həmin gün stendinizdə şəxsən olmanız vacibdir.

Quraşdırma və söküntü mərhələlərində pavilyon **saat 20:00-da** təhlükəsizlik xidməti tərəfindən bağlanır və **saat 09:00-da** yenidən açılır. Hər gün **saat 18:00-dan** sabahı **09:00-a qədər** pavilyon daxilindəki təhlükəsizlik təhlükəsizlik xidməti tərəfindən təmin edilir.

Bakı Ekspo Mərkəzinə gəldikdən sonra təhlükəsizlik əməkdaşı kiçik qabaritli avadanlıq və eksponatların çatdırılma formasını sizə təqdim edəcək. Quraşdırmanın son günü **saat 20:00-dan**

etibarən yalnız həmin formada qeyd olunan əşyalara görə məsuliyyət daşınacaq. Forma hər gün sərgi açılış və bağlanışından əvvəl yoxlanılacaq *(1-ci səhifəyə baxın)*.

## STEND QURAŞDIRICI ŞİRKƏTLƏRİN AKKREDİTASİYA PROSESİ

Bakı Ekspo Mərkəzinin ərazisində fəaliyyət göstərən bütün stend quraşdırıcı şirkətlər məcburi akkreditasiya prosesindən keçməlidir. Müqavilə şərtləri və akkreditasiya ilə bağlı ətraflı məlumat üçün Bakı Ekspo Mərkəzi və rəsmi akkreditasiya tərəfdaşı **"SQA Group"** ilə əlaqə saxlanılmalıdır.

**Müqavilə məsələləri üzrə:**

👤 Asim Zulfugarli

✉️ Asim.Zulfugarli@pre.az

📱 +994 10 234 46 68

**Akkreditasiya sertifikatı üzrə:**

👤 Aysel Abdurahmanova

✉️ aysel.abdurahmanova@pashaproperty.az

📱 +994 10 265 16 14

**DİQQƏT:** Akkreditasiyadan keçməmiş quraşdırıcı şirkətlər pavilyona quraşdırma işləri aparmaq üçün buraxılmayacaqdır.

## STENDİNİZ

Bu TEXNİKİ TƏLİMAT sərgi iştirakçısı, stend quraşdırmasına cavabdeh işçi qrupu və ya şirkət tərəfindən mütləq oxunmalı və tələblərə əməl edilməlidir.

Sərgi sahəsi seçilərkən pavilyonun tavan hündürlüyü, lyuklar, sütunlar və digər konstruktiv elementlər nəzərə alınmalıdır. Sahənin ölçüsü isə iştirak məqsədindən, eksponatların ölçülərindən və lazımi işçi sayından asılı olaraq müəyyən edilir.

Stend konstruksiyasının heç bir hissəsi — bayraqlar, lövhələr və digər elementlər də daxil olmaqla — müqavilədə göstərilən sahənin hüdudlarını aşmamalıdır. Əks halda təşkilatçı həmin elementləri iştirakçının xərcləri hesabına yığışdırmaq hüququnu özündə saxlayır.

Stend konfigürasiyasından (ada, yarımada, bucaq və ya cərgəiçi) asılı olaraq arxa və yan divarlar, həmçinin döşəmə örtüyü (kovrolin, laminat və s.) təmin edilməlidir. Stendiniz qonşu iştirakçının stendi ilə həmsərhədddirsə, həmin xətt boyunca öz divarlarınızın olması mütləqdir. Lütfən, bunu dizayn mərhələsində nəzərə alın.

Təşkilatçı şirkət stend quraşdırmasının təhlükəsizliyinə dair əlavə sənəd tələb etmək hüququna malikdir.

**QEYD:** Sərgi Təşkilatçısı stend konstruksiyası və dizaynına dəyişiklik tələb etmək hüququnu özündə saxlayır; bu dəyişikliklər iştirakçının xərcləri hesabına həyata keçirilir.

## STEND QURAŞDIRICILARI VƏ MONTAJ QRUPUNUN QEYDIYYATI

Qeydiyyat  iştirakçıların iş prosesini sadələşdirmək məqsədilə yaradılmış xüsusi xidmət.

Bakı Ekspo Mərkəzində stend quraşdırma işlərinə başlamaq üçün:

- İştirakçı şirkət, quraşdırıcını müəyyən etməli;
- Stend quraşdırıcı şirkəti montajçıları qeydiyyat forması əsasında stend quraşdırıcıları Texniki Menecera (+994 50 226 60 69) təqdim etməklə rəsmiləşdirməlidir *(1-ci səhifəyə baxın)*.

## AKKREDİTƏ OLUNMAMIŞ ŞİRKƏTLƏRİN SİYAHISI

Təşkilatçıların qaydalarını və akkreditasiya tələblərini pozan şirkətlər akkreditə olunmamışlar siyahısına daxil edilə bilər. Bu cür şirkətlərə cərimə tədbirləri tətbiq oluna, gələcək layihələrdə və Bakı Ekspo Mərkəzindəki fəaliyyətləri isə məhdudlaşdırıla bilər.

Siyahının əsas məqsədi tədbirlərin hazırlanması ilə bağlı riskləri azaltmaq, keyfiyyət və təhlükəsizlik standartlarını qorumaq və yüksəltməkdir. Akkreditə olunmamış şirkətlər siyahısı iştirakçının stend quraşdırıcısı seçmə formasında əlçatandır.

## MONTAJ QRUPU VƏ İŞTİRAKÇI DƏSTƏYİNİN SƏRGI MONTAJ İŞLƏRİNİN APARILDIĞI ƏRAZİYƏ ÇIXIŞI

Montaj və demontaj ərazisinə giriş xüsusi nişanlar (beyc) vasitəsilə həyata keçirilir. Sərgidə birbaşa iştirak etməyən təchizatçılar və ya iştirakçı əməkdaşları iştirakçı dəstəyi kimi qeydiyyatdan keçirilə bilər. Beyclər montajın ilk günündən etibarən hər gün **saat 09:00–20:00** arasında qeydiyyat masasında verilir.

**Beyc almaq üçün tələb olunanlar:**

- Şəxsiyyəti təsdiq edən sənəd;
- Stend quraşdırıcılara öncədən göndərilmiş elektron badge.

**DİQQƏT:** Əvvəlcədən elektron badge əldə etməyən montaj qrupu üzvləri, təchizatçılar və iştirakçı əməkdaşları montaj ərazisinə buraxılmayacaq.

## STENDİN MÜSTƏQİL QURAŞDIRILMASI

İştirakçı stend sahəsini müstəqil şəkildə qurmaq hüququna malikdir. Bunun üçün stend quraşdırıcı şirkətin seçimi və iştirakçı dəstəyi qeydiyyatı formasında müvafiq seçim edilməlidir. Müstəqil quraşdırma zamanı iştirakçı tikinti, akkreditasiya, texniki tələblər, təşkilatçı qaydaları və təhlükəsizlik normalarına riayət etməkdə tam məsuliyyət daşıyır.

## MONTAJ İŞİNİN APARILMASI QAYDALARI

Quraşdırmaya başlamazdan əvvəl stendinizin plana uyğun yerdə yerləşdirildiyini mütləq yoxlayın. Konstruksiyaların yeri ümumi sxemə uyğun olmazsa, stendi öz xərcləriniz hesabına söküb yenidən qurmalı olacaqsınız. Quraşdırma zamanı keçidlər tikinti materialları ilə bağlanmamalıdır.

**DİQQƏT:** Bütün montaj işləri təsdiq edilmiş qrafik çərçivəsində müəyyən edilmiş müddətlərdə tamamlanmalıdır. Sərginin iş saatlarında, o cümlədən açılış günü, sahədə tikinti işləri aparılması və montajçıların giriş etməsi qadağandır.

## AŞAĞIDAKILARA ICAZƏ VERILMIR:

- Elektrik şitləri, texnoloji lyuklar, yanğın şkafları və mühəndislik avadanlıqlarının yerləşdiyi sahələrdə konstruksiya quraşdırılması;
- Mişarlama, rəndələmə və digər dülgərlik işlərinin aparılması;
- Sprey vasitəsilə rəngləmə işləri;
- Döşəmə, divar və sütunlara boya, lak, yapışqan və ya çıxarılması çətin örtük materiallarının vurulması;
- Döşəmə, divar və sütunlarda deşiklər açılması.

## İKİMƏRTƏBƏLİ STENDLƏR

İkimərtəbəli stendlər üçün ikinci mərtəbənin sahəsinə uyğun əlavə ödəniş tələb olunur. Sifariş şəxsi kabinetdəki "Digər xidmətlər" forması vasitəsilə edilə bilər. İkimərtəbəli stend yanğınsöndürmə avadanlıqları və yanğın siqnalizasiya sistemi ilə təchiz edilməli, konstruksiya isə təhlükəsizlik normalarına uyğun möhkəmlik xüsusiyyətlərinə və sertifikatlara malik olmalıdır.

**DİQQƏT:** İkimərtəbəli stendin quraşdırılmasına başlamazdan əvvəl müvafiq ödənişin həyata keçirilməsi mütləqdir.

## STENDDƏ YEMƏK HAZIRLANMASI

Sərgi Təşkilatçısı ilə əvvəlcədən razılaşdırılmaq şərti ilə stend daxilində yemək bişirilməsinə aşağıdakı məhdudiyyətlər çərçivəsində icazə verilir:

- Açıq alovdan istifadə qadağandır; yalnız elektrik avadanlıqlarından istifadəyə icazə verilir;
- Ziyarətçilərə və qonşu iştirakçılara hörmət əlaməti olaraq tüstü və xoşagəlməz qoxuların yayılmasının qarşısı alınmalıdır. Bu məqsədlə xüsusi filtrli aspiratorların istifadəsi tövsiyə olunur.

Şikayətlər daxil olduqda Sərgi Təşkilatçısı yemək bişirilməsi prosesini dayandırmaq hüququna malikdir.

## ŞÜŞƏ DIVARLAR VƏ GÜZGÜLƏR

Tam hündürlüklü şüşə və ya güzgü elementləri müvafiq işarələrlə təchiz edilməli və zərbələrdən qorunmalıdır. Şüşə divarlar texniki xüsusiyyətləri və montaj sistemi baxımından qüvvədə olan standartlara cavab verməlidir. İctimai gediş-gəliş yolları boyunca quraşdırılan şüşə divarlar mütləq qırılmayan materialdan hazırlanmalıdır.

## İCZAƏ VERİLƏN SƏS-KÜY SƏVİYYƏSİ

Sərgi fəaliyyəti zamanı stend sərhədlərindəki səs-küy səviyyəsi **70 dB**-i aşmamalıdır. Bu hədd keçildikdə və ya şikayətlər daxil olduqda Təşkilatçı şifahi xəbərdarlıqdan sonra səs mənbəyini söndürmək və cərimə tətbiq etmək hüququna malikdir.

## ÜMUMİ MƏLUMAT

Sütunlar, lyuklar, elektrik şkafları və texniki qoşulma nöqtələri sərgi sahənizin daxilində yerləşə bilər. Diametri 50 mm-ə qədər olan güc kabelləri, borular, elektrik şkafları və paylayıcı lövhələr əlavə icazə olmadan keçidlərdə və ya stend daxilində yerləşdirilə bilər. Döşəmə və podium

planlaşdırılarkən bunu nəzərə almaq vacibdir. Ətraflı məlumat üçün Texniki şöbə ilə əlaqə saxlayın *(1-ci səhifəyə baxın)*.

Stend konstruksiyaları yanğın hidrantlarına və elektrik paylayıcılarına çıxışı bağlamamalı, həmçinin təxliyyə yollarını tutmamalıdır. Stendlərin arxasındakı keçidlər hər hansı maneədən azad saxlanılmalıdır.

**DİQQƏT:** Heç bir reklam konstruksiyası — banner, bayraq və s. — Təşkilatçının yazılı icazəsi olmadan pavilyonun döşəməsində, divarlarında və ya digər hissələrində yerləşdirilə bilməz.

**DİQQƏT:** Stendlərin sərgi iş saatları başa çatmadan sökülməsi qəti qadağandır. Söküntünün son günü **saat 20:00-a qədər** bütün ərazi tullantılardan və konstruksiyalardan tam təmizlənməlidir. Bu müddətə əməl etməyən şirkətlər əlavə iş saatlarının ödənişini öz üzərlərinə götürməlidirlər. Söküntü ciddi gecikmə səbəbindən növbəti günə keçirilsə, gecikməyə səbəb olan şirkətlər əlavə montaj günü üçün ödəniş etməlidir.

## PANDUSLARIN QURAŞDIRILMASI ÜZRƏ TÖVSİYƏLƏR

Məhdud hərəkət imkanı olan ziyarətçilərin rahatlığını və müasir əlçatanlıq standartlarını təmin etmək məqsədilə stend planlaşdırılarkən pandus quraşdırılması tövsiyə olunur:

- Pandusun meyl bucağı **5°-dən** çox olmamalıdır;
- Minimum eni əlil arabası üçün rahat hərəkəti təmin edəcək **90 sm** olmalıdır;
- Sürüşməyə qarşı örtüklərdən istifadə edilməlidir;
- Zəruri hallarda əlavə tutacaqlar quraşdırılmalıdır;
- Panduslar stendin əsas zonalarına asan çıxışı olan yerlərdə yerləşdirilməlidir.

## QAPILAR

Ziyarətçilərin təhlükəsizliyini təmin etmək üçün stend daxilindəki otaqların stendlərarası keçidə açılan qapılarının sürüşmə (slayd) tipli olması tövsiyə edilir. Yanğın təhlükəsizliyi tələblərinə uyğun olaraq isə bütün otaq qapıları xaricə açılmalıdır

## STENDİN HÜNDÜRLÜYÜ

Stendiniz qonşu stendlərə yaxın yerləşirsə, daha ahəngdar və estetik görünüş üçün divar hündürlüyünün dizayn mərhələsində Təşkilatçı ilə razılaşdırılması tövsiyə olunur. Əlaqə məlumatı üçün sərgi Təşkilatçısına müraciət edin.

## ASMA KONSTRUKSİYA

Asma konstruksiyaların stend sahəsi daxilində yerləşdirilməsinə icazə verilir, lakin konstruksiya stendin bütün sahəsini əhatə etməməlidir. Stend sərhədlərindən minimum 1 m məsafə saxlanılması məcburidir. Bu tələb pozulduqda, xüsusilə asma konstruksiyanın kommunikasiya xətləri qonşu stend ərazisindən keçirsə və ya qonşu stendin dizaynına vizual və ya konstruktiv cəhətdən təsir göstərirsə, mübahisəli vəziyyətlər yarana bilər.

## QR-KOD, STEND NÖMRƏSİ VƏ SƏRGİNİN LOQOTİPİ

Ziyarətçilərin sərgi planında stendinizi asanlıqla tapa bilməsi üçün stend dizaynında şirkətiniz haqqında məlumat əks etdirən QR-kod, stend nömrəsi və sərgi loqotipindən istifadə etməyiniz tövsiyə olunur. Müvafiq materialı hazırlamaq üçün Texniki Menecerə müraciət edə bilərsiniz.

# ÜMUMİ VƏ ƏLAVƏ XİDMƏTLƏR

Əlavə texniki avadanlıq və xidmətlər müvafiq sifariş formaları vasitəsilə əldə edilə bilər *(1-ci səhifəyə baxın)*. Siyahıda olmayan avadanlıqlar üçün mövcudluq və qiymət barədə Texniki Şöbə ilə əlaqə saxlanılmalıdır. Montaj dövründə verilən sifarişlərə **100% əlavə haqq** tətbiq olunur və bəzi xidmətlər mövcud olmaya bilər. Su təchizatı qoşulması üçün sifarişlər montaj zamanı qəbul edilmir — sifarişləri əvvəlcədən şəxsi kabinetdə yerləşdirməyiniz tövsiyə olunur.

## STANDART VƏ FƏRDİ SAHƏ QURAŞDIRILMASI

Sərgi Təşkilatçısı həm Almaniyanın Octanorm standart konstruksiya sistemi əsasında, həm də fərdi formatda stend qurulması xidməti təqdim edir. Ətraflı məlumat, məsləhət və sifariş üçün Sərgi Təşkilatçısına müraciət edin.

## TƏMİZLİK XİDMƏTİ

Əlavə təmizlik xidmətlərinə sərgi açılışından əvvəl və nahar fasiləsindən sonra quru və nəm təmizləmə daxildir. İrihəcmli tullantıların və konstruksiya qalıqlarının çıxarılması, habelə konteyner sifarişi ilə bağlı xərclər iştirakçının üzərinə düşür.

**DİQQƏT:** Quru və nəm təmizlik xidmətləri sahə icarəsinə daxil deyil; **"Müvəqqəti personal və təmizlik"** forması ilə ayrıca sifariş edilməlidir.

Təmizlik sifarişi verilmədikdə stend qulluğu iştirakçının məsuliyyətindədir. Zibil bir gün əvvəl stend qarşısındakı keçidlərə qutu və ya torbalara yığılaraq qoyula bilər — sabahkı ümumi təmizlik zamanı çıxarılacaq.

## MONTAJ ZAMANI ƏLAVƏ İŞ SAATLARI

Hər gün **saat 20:00-da** mühafizə xidməti montaj işlərini dayandırır. Əlavə iş saatları üçün ödəniş etmiş şirkətlər işə **saat 21:00-dan** etibarən davam edə bilərlər.

## MÜVƏQQƏTİ İŞÇİ HEYƏTİ

Stend üçün təhlükəsizlik, təmizlik, stend köməkçisi, tərcüməçi və model xidmətlərindən yararlanmaq mümkündür. Təşkilatçı vasitəsilə sifariş edilmədikdə stenddə çalışan bütün əməkdaşların iştirakçı beycinin olmasına diqqət yetirilməlidir.

## TƏHLÜKƏSİZLİK XİDMƏTİ

Sərgi Təşkilatçısı qayda pozuntularından irəli gələn zərərlərə görə məsuliyyət daşımır. Pavilyon açıq olduğu müddətdə stenddə nümayəndənin olması və ya fərdi mühafizə xidmətinin sifariş edilməsi tövsiyə olunur.

## ELEKTRİK ENERJİ TƏCHİZATI

Elektrik enerjisi sahə icarəsinə daxil deyil və ayrıca sifariş edilməlidir. Stendə elektrik qoşulması **"Elektrik quraşdırma işləri"** tələblərinə uyğun olaraq iştirakçı və ya stend tərtibatçısı tərəfindən müstəqil həyata keçirilməlidir (13-cü səhifəyə baxın). Stend mütləq elektrik şiti ilə təchiz edilməlidir. Avadanlıq izolyasiya yoxlamasından sonra enerji mənbəyinə qoşulur.

**QEYD:** Elektrik sifarişi verən stendlər yalnız sərgi iş saatlarında enerji ilə təmin edilir. **24 saatlıq** enerji tələb edən avadanlıqlar (məsələn, soyuducular) üçün **"Qoşma və Audio-video avadanlıq"** forması vasitəsilə əlavə rozetka sifariş edilməlidir (1-ci səhifəyə baxın). Asma konstruksiya planlaşdırılarkən nəzərə alın ki, elektrik enerjisi yuxarıdan yox, **aşağıdan** verilir.

**DİQQƏT:** Sifariş edilən enerji gücü stenddəki bütün avadanlıqların ümumi gücünə uyğun olmalıdır. Əks halda həm stenddə, həm də bütün blokda elektrik kəsilməsinə və avadanlıq nasazlığına səbəb ola bilər. Qayda pozuntusu nəticəsində enerji kəsilirsə, həmin iştirakçının stendinin elektrik təchizatı dayandırılacaq.

## SU XƏTTİNƏ QOŞULMA

Avadanlığın stend şlanqlarına qoşulması şirkətinizin öz mütəxəssisləri və ya stend qurucusu tərəfindən həyata keçirilməlidir.

## TELEKOMMUNİKASİYA

İnternet xidməti sifariş edilərkən nəzərə almaq lazımdır ki, **Wi-Fi** bağlantısının keyfiyyətinə zəmanət verilmir. Zəmanətli sürət yalnız sifariş qiymətinə daxil olan **LAN kabeli** vasitəsilə təmin edilir. Təqdimatlar üçün audio və video avadanlıqlar **"Qoşma və Audio-video avadanlıq"** forması vasitəsilə sifariş edilə bilər (1-ci səhifəyə baxın).

### BANNERLƏR / PAVILYONLARIN TAVANINA TEXNİKİ ASMALAR

Pavilyon tavanına reklam və texniki asmaların yerləşdirilməsi yalnız Təşkilatçı vasitəsilə sifariş edilə bilər. Montajın başlanmasına ən geci **30 iş günü** qalmış aşağıdakı sənədlər Texniki Şöbəyə təqdim edilməlidir:

- Stend planının konstruksiya sxemi;
- Hər bir konstruksiyanın çəkisi, hər nöqtə üçün hesablanmış yük miqdarı və yuxarı asqı nöqtəsinin hündürlüyünü göstərən tavan tirlərinə bağlanma sxemi;
- Asılacaq avadanlıqların siyahısı və ümumi çəkisi;
- Asılmış konstruksiyanın stend üzərindəki yerinin təsviri;
- Quraşdırma zamanı konstruksiyanın tərtibatı, quraşdırılması və texniki təhlükəsizliyinə cavabdeh müştəri nümayəndələri haqqında ətraflı məlumat.

Asqı sifarişi yalnız sifariş forması vasitəsilə və müraciət forması əsasında qəbul edilir.

**DİQQƏT:** Sifarişə asqı nöqtələri və asqı xidmətləri daxildir. Asqılar quraşdırmanın **ilk günü** gətirilməlidir. Asqı nöqtəsi sifariş edən iştirakçı asqı kabellərini özü ilə gətirməlidir.

### ÖDƏNİŞLƏR VƏ SİFARİŞİN LƏĞVİ

Sifariş edilmiş xidmətlər hesab-faktura alındıqdan dərhal sonra ödənilməlidir. Şəxsi kabinetdəki sifariş formalarında göstərilən bütün qiymətlərə ƏDV və digər vergilər daxil deyil — bunlar hesab-faktura tərtib edilərkən əlavə olunacaq.

Əvvəlcədən yerləşdirilmiş sifarişlər montajın başlanmasına ən geci **2 ay qalmış** ləğv edilə bilər. Ləğv üçün Texniki Şöbəyə rəsmi məktubla müraciət edilməlidir *(1-ci səhifəyə baxın)*.

## CƏRİMƏ SANKSİYALARI

Texniki Təlimatın tələblərinə, sərgi reqlamentinə, meydança qaydalarına, həmçinin stendlərin montajı, istismarı və demontajı üçün müəyyən edilmiş müddətlərə əməl edilmədiyi hallarda, Təşkilatçının qüvvədə olan tariflərinə və müqavilə şərtlərinə əsasən eksponentlərə və/və ya onların podratçı şirkətlərinə cərimə sanksiyaları tətbiq edilə bilər.

Cərimə sanksiyalarının tətbiq edilmə əsasları və məbləği Təşkilatçı tərəfindən müəyyən olunur və bu barədə eksponentə əlavə məlumat təqdim edilir.

| № | Cərimələr | Vahid | Cəriminin məbləği |
|---|---|---|---|
| 1 | Təchiz olunmuş stendin konstruksiyalarına və panellərinə dəyən ziyana görə cərimə | əd. | 90 AZN |
| 2 | Səs (küy) səviyyəsini aşmağa görə cərimə | - | 200 AZN |
| 3 | Stendin quraşdırılması və sökülməsinin gecikdirilməsinə görə cərimə | saat | 400 AZN |
| 4 | Stendin erkən demontajı üçün cərimə (sərgi başa çatmamışdan əvvəl) | - | Sahənin 1/5 dəyəri |
| 5 | Stend sahəsinin sərhədlərini pozmağa görə cərimə | kv.m. | saha sifarişi formasına əsasən |
| 6 | Qida hazırlanması qaydalarının pozulmasına görə cərimə | - | 200 AZN |

**DİQQƏT:** Yuxarıda qeyd olunan cərimələrə 18% ƏDV əlavə olunacaq.

# ELEKTRİK QURAŞDIRMA İŞLƏRİ VƏ BU İŞLƏRİ HƏYATA KEÇİRƏN ŞƏXSLƏRİN FƏALİYYƏTİ

Elektrik quraşdırma işlərini yerinə yetirən şəxslər və təşkilatlar aşağıdakı tələblərə riayət etməlidirlər:

1. Eksponentlərin stendlərində elektrik quraşdırma işləri yalnız müvafiq fəaliyyət sahəsi üzrə lisenziyaya malik və akkreditasiyadan keçmiş şirkət və təşkilatlar tərəfindən icra edilə bilər.
2. Elektrik quraşdırma və elektrik avadanlıqlarının istismarı ilə bağlı işlərə yalnız elektrik təhlükəsizliyi üzrə təsdiq edilmiş ixtisasa malik və elektrik-texniki personal üçün müəyyən edilmiş tələblərə cavab verən şəxslər cəlb oluna bilər.
3. Bütün elektrik işləri Azərbaycan Respublikasının "Elektrik quraşdırmalarının istismarında təhlükəsizlik texnikası qaydaları"na və "Yanğın təhlükəsizliyi haqqında" Qanuna uyğun şəkildə həyata keçirilməlidir.
4. Elektrik quraşdırılması eksponent tərəfindən təqdim olunan stend planına əsasən aparılır. Planda elektrik avadanlıqlarının və işıqlandırma qurğularının yerləşməsi, qidalanma gərginliyi, hər bir avadanlığın maksimal gücü və enerji mənbələrinə qoşulma nöqtələri göstərilməlidir.
5. Elektrik quraşdırma işlərinə icazə verildiyi andan etibarən təhlükəsizlik qaydalarına əməl olunmasına nəzarət akkreditasiya tərəfdaşının nümayəndələri tərəfindən həyata keçirilir.
6. Hərəkətdə olan və ya yaxınlıqdakı avadanlıqlarla bağlı bütün işlər yalnız gərginlik tam kəsildikdən sonra icra edilməlidir.
7. Mexaniki zədələnmə riski olmayan hallarda açıq kabel çəkilişi zamanı yanmayan örtüyə malik kabellərdən istifadə olunmalıdır.
8. Açıq sahələrdə və insanların intensiv hərəkət etdiyi zonalarda kabellər xüsusi qoruyucu kabel kanalları və ya treklərlə örtülməlidir.
9. Qorunmayan kabellərin çəkilməsi və işıqlandırma avadanlıqlarının yanar konstruksiyalar üzərində quraşdırılması qadağandır.
10. Bütün kabel birləşmələri və şaxələndirmələr yalnız xüsusi sıxaclar və konnektorlar vasitəsilə yerinə yetirilməlidir. Kabellərin birbaşa birləşdirilməsinə yol verilmir.
11. Daşınan və ya yerinin dəyişdirilməsi nəzərdə tutulan enerji qəbulediciləri üçün mexaniki təsirlərə davamlı çevik kabellərdən istifadə edilməlidir.

12. Hər bir stend işıqlandırma şəbəkəsi, texnoloji avadanlıqlar və UPS sisteminə qoşulan qurğular üçün nəzərdə tutulmuş qoruyucu cihazların nominal gərginliyinə uyğun fərdi qaydada qoşulmalıdır.

13. Paylayıcı qurğulara və enerji giriş nöqtələrinə maneəsiz çıxış təmin edilməlidir.

14. Sərgi zalları və stendlərin işıqlandırılması üçün yanğın təhlükəli məkanlar üçün nəzərdə tutulmuş işıqlandırma vasitələrindən istifadə olunmalıdır. Orqanik şüşə, polistirol və digər yanıcı materiallardan hazırlanmış diffuzorların istifadəsinə icazə verilmir. İşıq mənbələri ilə yanıcı səthlər arasında minimum 40 sm məsafə saxlanılmalıdır.

15. Elektrik quraşdırma işləri başa çatdıqdan sonra AzExpoMontage nümayəndəsi görülmüş işlərin keyfiyyətini yoxlayır və stendi təsdiq olunmuş plana uyğun olaraq Bakı Ekspo Mərkəzinin elektrik şəbəkəsinə qoşur.

16. Stendə enerji verilməsi AzExpoMontage nümayəndəsi və eksponent nümayəndəsinin iştirakı ilə “Avadanlıq və elektrik qurğularının düzgün istismarı üzrə məsuliyyət aktı” imzalandıqdan sonra həyata keçirilir.

17. Sərgi müddətində stendlərdə quraşdırılmış elektrik avadanlıqlarının vəziyyətinə nəzarət AzExpoMontage-in məsul əməkdaşları tərəfindən aparılır.

18. Sərgi başa çatdıqdan sonra elektrik enerjisinin kəsilməsi AzExpoMontage və ya Bakı Ekspo Mərkəzinin elektrik-texniki heyəti tərəfindən həyata keçirilir.

19. Elektrik avadanlıqlarının sökülməsi və demontajı həmin işləri həyata keçirmiş ixtisaslaşmış personal tərəfindən aparılır. AzExpoMontage və Bakı Ekspo Mərkəzi “Elektrik quraşdırmalarının istismarında təhlükəsizlik texnikası qaydaları”nın və “Yanğın təhlükəsizliyi haqqında” Qanunun kobud şəkildə pozulduğu hallarda, qəza və təhlükə riskinin qarşısını almaq məqsədilə elektrik enerjisinin verilməsini dərhal dayandırmaq hüququna malikdir.


MEET.
NETWORK.
INVEST.
AZERBAIJAN.
airex.az